*Vətən müharibəsi: düşüncələr*

# "Bu, bizim hamımızın qələbəsidir..."



*Bu ilin payızının ilk ayının son günləri Azərbaycan Ordusunun şəxsi heyətinin istəyini gerçəkləşdirdi. Ordunun şəxsi heyətinin amalı nə idi? - döyüş əmri, torpaqlarımızı işğaldan azad etmək üçün döyüşmək, qələbə qazanmaq, hərbçi kimi missiyasını böyük məsuliyyətlə yerinə yetirmək.*

Ölkəmiz tarixən öz sülhsevərliyi və humanistliyi ilə dünya ölkələrinə nümunə olub. Uzun illərdir hər bir azərbaycanlının ürəyini sızladan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ikili münasibətlərə, beynəlxalq təşkilatların riyakarlığına, Ermənistanın işğalçılıq niyyətinə görə həll olunmurdu. Azərbaycanın bəşəri niyyətlərinə, sülh tərəfdarı olmasına baxmayaraq, Ermənistan işğalçılıq mövqeyini dəyişmirdi, Azərbaycan sülh istədikcə Ermənistan azğınlaşırdı.

Sentyabrın 27-də əks-hücum əməliyyatı kimi başlayan Vətən müharibəsi Azərbaycan Ordusunun qadirliyinin, əsgər və zabitlərinin döyüş və mənəvi-psixoloji hazırlığının, Vətən sevgisinin döyüşü oldu. Bu döyüşlər beynəlxalq təşkilatlara bir həqiqəti də xatırlatdı: gec edər, güc edər, yəni, sizin həll etmək istəmədiyiniz, həll edə bilmədiyiniz münaqişəni biz həll etdik.

Bu ilin payızı otuz ilin payızının ən gözəli oldu. Torpaqlarımızın işğalı mənimlə yaşıddı; yaşıdım olan işğalı sonlandıran döyüşlərin iştirakçıları ilə görüşəndə, iki-üç ay əvvəl döyüş növbətçiliyi aparan əsgərlərlə Vətəndən, torpaqdan, Ali Baş Komandanın verəcəyi döyüş əmrindən danışırdıq. Bunları döyüşlər, qazanılan qələbələr tamamladı. Bu ilin payızı ona görə gözəl payızdı...

Döyüş bölgəsinə, döyüşçülərimizin dayaq məntəqəsinə bu düşüncələrlə çatmışdım. Döyüşlərin ilk günlərində yaşanılan gərginliklər də, bu gərginliklərə görə ictimaiyyətin narahatlığı da, qazanılan qələbələrə görə



gərginliklərin yumşalması, azalması da inamımı kükrədirdi. Mənə elə gəlirdi ki, bu kükrəməni təkcə özüm hiss etmirəm, Azərbaycan əsgərinə inanan, güvənən ictimaiyyətin də Vətən müharibəsindən sonra yaşanılacaq illərə sevgisi olanların hamısı hiss edir.

Xalqın Vətən müharibəsində iştirakı mənə də xoş ovqatlar yaşadıb. Eşitdiklərimin eynini gördükcə son döyüşün uzaqda olmadığını hiss etmişdim. Bunları söhbət etdiyim döyüşçülərə də deyirəm. Arzu edilən ovqat yaranır. Yollar boyunca Vətən müharibəsinə xas olan coşqu görürəm. Bu coşqu döyüşənlərə inamın coşqusuydu, qazanılan qələbələrin sevincinin coşqusuydu, düşünürdüm. Gözəl düşüncə məni döyüşənlərin əhatəsinə çəkirdi...

Döyüşçülər deyirdilər ki, qələbə üçün döyüşürük, Vətən üçün döyüşürük, Azərbaycanımız üçün döyüşürük. Döyüşçülər deyirdilər ki, bu döyüşləri haqq döyüşümüz bilib döyüşürük, zəfər döyüşləri kimi tarixlərə köçürmək üçün döyüşürük.

Ali Baş Komandanın əmri ilə əsgərlərimiz böyük ruh yüksəkliyi ilə döyüşdülər. Hərbi əməliyyatı, Ali Baş Komandanın döyüş əmrini böyük məsuliyyətlə davam etdirdilər. Ölkəmizin qüdrət nümunəsi, xalqın inam yeri, ərazi bütövlüyümüzün əsas təminatçısı olan müzəffər ordumuz tarixi ədaləti bərpa etmək üçün düşmənə qarşı qətiyyətlə döyüşdü. Torpaqlarımız işğaldan azad olunduqca xalqımız sevinir, şanlı ordumuzla qürur duyurdu. Bu qürur dövlətçiliyimizlə qoşa yaşadılacaq. Ulu öndər Heydər Əliyevin nizami ordu kimi formalaşdırdığı ordumuz inkişaf etdi, möhkəmləndi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ordu quruculuğunu daha da sürətləndirdi. Son illər ordu quruculuğunda genişmiqyaslı islahatlar həyata keçirildi, təlimlər şəxsi heyətin döyüş hazırlığını daha da yüksəltdi.

Vətən müharibəsində əsgərlərimiz mərdliklə döyüşdü, torpaqlarımızı işğaldan azad etdi.

Dünya gördü ki, Azərbaycan xalqının, Azərbaycan Ordusunun möhkəm iradəsi qarşısında heç nə tab gətirə bilməz. Hər ezamiyyətimizdə Azərbaycan əsgərinin dilindən düşməyən müqəddəs amalın nəticəsi oldu Vətən müharibəsi. Hər bir azərbaycanlının Qarabağ arzusunu Azərbaycan əsgəri döyüş-döyüş reallaşdırdı.

Vətən müharibəsində fəal iştirak etmiş döyüşçü kimi təqdim edilən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Səbuhi Həsənov dedi ki, bu döyüşlər qurtuluş döyüşləriydi. "Bu gün hər bir azərbaycanlının ürəyinin döyüşənlərimizlə bir döyündüyünü bilirdik, hiss edirdik. Ali Baş Komandanımızın sərkərdəliyi ilə Vətən müharibəsini qələbə ilə başa çatdırmaq üçün döyüşürdük. Bütün dünya azərbaycanlıları, Azərbaycanı sevənlər haqq mübarizəsində ordumuzun yanındaydı. Azərbaycan əsgərinin döyüş ruhu qarşısında düşmənin hərbi qulluqçuları ciddi müqavimət göstərə bilmədilər. Döyüşlərdə düşmən minaatanlardan da istifadə edirdi. Mərmilər bəzən yaxınlığımıza düşsə də, torpağı titrədirdi, bizim döyüş əzmimizi, qələbə ruhumuzu yox. Düşmənin hərbi qulluqçuları məcburi müdafiə olunurdu. Tam məğlub olacağı günə az qaldığını bilirdi. Son döyüşdən üç gün əvvəl düşmən bizim əlimizlə xeyli texnika, silah-sursat, canlı qüvvə itkisinə məruz qaldı...".

Əsgər Fikrət Hüseynov da döyüşlərdən danışdı: "Sentyabrın 27-də düşmənin təxribat niyyətinin qarşısı qətiyyətlə alındı. Yuxarı komandanlığın tapşırığı ilə bizim bölmə də əks-hücuma keçdi. Gərgin döyüşlərdən sonra düşmənin müdafiə səddini yardıq, döyüşə-döyüşə irəlilədik, düşmənin çoxlu canlı qüvvəsini və texnikasını məhv etdik. Sevinirəm və qürurlanıram ki, bayrağımız işğaldan azad edilən torpaqlarımızda dalğalanır".

"Qazanılan qələbələr təsdiqlədi ki, Azərbaycan əsgəri güclüdür, Ali Baş Komandanımızın əmrini yerinə yetirdi", - əsgər Rəşad Mehdiyev də söhbətə qoşuldu: "Ordumuzun qazandığı qələbəni şərtləndirən amillərdən biri, şübhəsiz ki, Azərbaycan xalqınının vətənpərvərlik hissindən yaranan gücdür. Ən müasir, ən güclü silahlara malik olan ordunun şəxsi heyəti vətənpərvər deyilsə, o qüdrətli ola bilməz. Vətən müharibəsi ordumuzun gücünü nəinki düşmənə, həm də bütün dünyaya göstərdi. Xalqımızın taleyinə xain düşmənlə qonşuluq düşüb. Döyüşlərdə qüdrətli ordumuza qarşı müqavimət göstərə bilməyən düşmən mülki insanları hədəfə alırdı. Lakin onlar bir şeyi başa düşmürdülər ki, Azərbaycan xalqını belə şeylər qorxuda bilməz, əksinə, gücləndirər, gücləndirdi..."...

Əsgər Azər Şəfiyev maraqlı bir məqama toxundu: "Döyüşlərdə biz erməni əsgərlərinin qaçdığını dəfələrlə gördük. Bilirik ki, düşmən tarixən qorxaq olub. Öz hesabına heç nə əldə etməyi bacarmayıb. Havadarlarına bel bağlayıb. Düşmən xeyli itkilər verərək geri çəkilirdi. Bu, onun məğlubiyyətinin başlanğıcıydı. Bəzən döyüş texnikalarını da atıb gedirdilər. Azərbaycan əsgəri öz tarixi ərazilərini işğaldan azad etdi. Bu istəyin qarşısını heç nə kəsə bilməzdi".

Fikrət Hüseynov əsgər yoldaşının fikirlərini Vətən müharibəsinin qələbə ilə başa çatacağının dönməz zəmanəti kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi bir kəlamla tamamladı: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib



gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik".

"Aprel döyüşlərindən sonra Cocuq Mərcanlıda soydaşlarımız üçün yaşayış kompleksi salındı. İndi o məkanların həqiqi sahibləri orada yaşayırlar. Yaxın vaxtlarda qayğı ilə əhatələnəcək eyni taleni işğaldan azad edilmiş bütün kəndlərimizin sakinləri də yaşayacaqlar. Döyüşlərimiz xalqımızı həmin günə çatdırdı. Fəxr edirəm ki, tarixi ədaləti bərpa edən bu döyüşlərdə mən də iştirak etmişəm", - əsgərlərin sözləri bizə könül xoşluğu verdi.

Əsgər Elvin Musayev dedi: "Ordumuz döyüşə-döyüşə Şuşaya çatdı. Dünyanı heyrətləndirən səviyyədə qələbə qazandı. Ali Baş Komandanımızın xalqa hər müraciəti bizim döyüş əzmimizi, qələbə ruhumuzu daha da yüksəltdi. Döyüşləri qələbə ilə tamamladıq. Bizi hərbi xidmətə yola salanların yanına qalib döyüşçü kimi qayıdacağıq. Vətən müharibəsi uğurla, qələbələrlə başa çatdı. Döyüşdən-döyüşə qələbəyə daha da yaxınlaşırdıq. Döyüşlərdə düşmənin atıb getdiyi silah-sursat, texnika, hətta yaralı yoldaşları və meyitləri düşmənin iç üzünü açırdı, mənəviyyatsızlığını, qorxaqlığını bir daha təsdiqləyirdi. Vətən müharibəsi xeyirin şər üzərində tam qələbəsi oldu".

Əsgər Mehman Sadıqzadənin baxışlarını bürüyən nifrətini hiss etmək çətin deyildi. Bu nifrətin ünvanı Meşəli, Bağanıs-Ayrım, Xocalı faciələrini törədənlərin olduğunu bilirdim. "Əsgər yoldaşlarımız var ki, ataları uşaq yaşlarından müharibə görüb. Onların xatirələri ilə yaşa dolanlar bu gün hərbi xidmətdədi, indi döyüşlərdədi. Hərbi and içəndə də, döyüş növbətçiliyi aparanda da Ali Baş Komandanın döyüş əmrini biz də arzulamışıq. Bəzən komandirimizdən soruşurduq ki, torpaqlarımızı işğaldan azad edəcək döyüşlər nə vaxt olacaq? Komandirimiz təmkinlə deyirdi ki, vaxtı çatanda. Vaxtı indi imiş, əks-hücum əməliyyatı kimi başlayan döyüşlər Vətən müharibəsi kimi davam etdi. Ordumuz qələbələr qazana-qazana işğalı sonlandırdı. Torpaqlarımızı işğaldan azad etməyimiz dünyanın yadında əbədilik qalacaq. Çünki qələbəmiz tarixi qələbə oldu". Əsgərin fikirlərini mənəvi kamilliyin təzahürü kimi dinlədik. Döyüş bölgəsində döyüşçülərdən eşitdiklərim ruhumun işığı kimiydi...

...Döyüşlər başa çatdı. Azərbaycan Ordusu qələbə qazandı.

Döyüşçülərlə kəlmələşəndə də məhz bu günün tez olacağına inamla danışırdıq; kamillik müqəddəs döyüşlərin iştirakçılarını hamının əzizi etmişdi. "Ali Baş Komandanın müsahibələrində dedikləri Azərbaycan əsgərini daha da kamilləşdirmişdi", - düşünürdüm. Bu kamillik döyüşlərdə qətiyyətlə, mərdliklə, qəhrəmanlıqla döyüşmək idi. Xalq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 10-da müraciətini Vətən müharibəsinin başa çatması kimi dinlədi, həm də bir daha əmin oldu ki, bu müqəddəs döyüşlərin iştirakçıları heç zaman unudulmayacaqlar. Qazilər də, şəhidlər də: "...Bizi bu qələbəyə görə onlara borcluyuq. Onlar torpaqlarımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb. Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır".

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**